

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 fevral 2025-ci il №14 (2923) https://mod.gov.az Qiymәti 30 qәpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Bütün Qarabağ bölgəsi, Şərqi Zəngəzur bölgəsi dirçəlir və hər gün biz bunu əyani şəkildə görürük



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 18-19 fevral tarixlərində işğaldan azad edilən ərazilərdə aparılan tikinti işləri, bir sıra infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin, eləcə də Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Bulud" hotelinin açılışında iştirak ediblər.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, sonra kəndə köçən bir qrup sakinlə görüşüb. Ballıca kənd sakinləri ilə görüşən dövlətimizin başçısı görüşdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- İki aydır ki, Ballıca kəndində keçmiş köçkünlər yaşayır. Mən bu gün burada bir neçə keçmiş köçkünlə görüşmüşəm, ev şəraitinə baxmışam. Şadam ki, uzun fasilədən sonra Ballıca kəndinə də artıq həyat qayıdıb. Keçmiş köçkünlər indi demək olar ki, hər ay hissə-hissə, qrup-qrup öz dədə-baba torpaqlarına qayıdırlar. Böyük Qayıdış Proqramı icra edilir. Deməli olar ki, vaxtı ilə işğal altında olan bütün torpaqlar bərpa edilir. Dünən Ağdam rayonunda gedən quruculuq-bərpa işləri ilə tanış olmuşam. Bu gün buradayam. Eyni zamanda, Xankəndidə də olmuşam, orada da gözəl işlər görülür, yeni iş yerləri, yeni müəssisələr yaradılır. Mənim Sərəncamımla Qarabağ Universiteti yaradılmışdır. Orada mindən çox tələbə oxuyur. Orta məktəblər, tibb məntəqələri inşa olunur. Yəni, həyat üçün nə lazımdırsa, hər şeyi edirik, həm şəhərləri, həm də kəndləri bərpa edirik.

Ballıca kəndinin də bərpası artıq son mərhələdədir. Mənə verilən məlumata görə, 137 ev artıq bərpa edilib və 60-a yaxın ev hələ bərpa olunacaq. Ballıcada artıq 460 keçmiş köçkün yerləşib. Evləri bərpa etmişik, kənd təsərrüfatı ilə məşğul olmaq üçün imkanlar yaxşıdır, torpaq münbitdir, hava da təmizdir. Bütün Qarabağ bölgəsi, Şərqi Zəngəzur bölgəsi dirçəlir və hər gün biz bunu əyani şəkildə görürük.

Əlbəttə ki, Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir. İşğala son qoyduq, 2023-cü ildə antiterror əməliyyatı nəticəsində bu bölgəni də işğaldan azad etdik. Ballıca və yüzlərlə digər yaşayış məntəqəsi artıq işğalçılardan tam azad olunmuşdur və indi həyatı bərpa edirik. Yəni, hər şeyi mərhələli yollarla edirik, öz gücümüzlə, bizə heç kim kömək etmir. Ancaq öz imkanlarımız daxilində, öz gücümüzə arxalanaraq, Azərbaycan xalqının imkanlarına arxalanaraq, dövlət hesabına bütün bərpa-quruculuq işləri aparılır, özü də qısa müddət ərzində.

İndi İkinci Qarabağ müharibəsindən dörd il keçibdir, baxın nə qədər böyük işlər görüldü, hər yerdə, təkcə Xocalı rayonunda yox. Halbuki Xocalı şəhərini bərpa etmək bizim ən başlıca borcumuz idi. Çünki müharibədən və işğaldan, Birinci Qarabağ müharibəsinin çətin vəziyyətindən əziyyət çəkən ən çox elə xocalılılar olmuşdur, onlara qarşı soyqırımı törədilmişdi. Ona görə Xocalını azad etmək hər zaman gündəlikdə duran məsələ idi. İkinci Qarabağ müharibəsi 2020-ci il noyabrın 10-da dayanandan sonra yenə də bütün köçkünlər bilirdilər ki, Xocalı azad olunmayana qədər biz işimizi bitmiş hesab etməyəcəyik. Nəinki Xocalı, Xankəndi də, Ağdərə, Xocavənd və Əsgəran rayonları da işğalçılardan tam azad edildi. Yüzlərlə kənd artıq öz sahiblərini gözləyir.

Ballıca kəndi bərpa etdiyimiz və keçmiş köçkünlərin qayıtdığı 10-cu yaşayış məntəqəsidir. Yəni, bu, Böyük Qayıdış Proqramının birinci mərhələsinə aiddir. Artıq burada, yenə də deyirəm, 500-ə yaxın insan yaşayır. Həm o vaxt bu bölgədə yaşayan vətəndaşlar, eyni zamanda, onların uşaqları, nəvələri, nəticələri qayıdıblar. Bu, bir daha onu göstərir ki, xalqımız öz torpağına nə qədər bağlıdır. Bu gün bölgəni, bu yerləri görməyən balaca uşaqlar, yaxud da ki, gənc insanlar həvəslə qayıdırlar, işləyirlər, qururlar, yaradırlar. Öz torpaqlarına qayıdan keçmiş köçkünlərlə çoxsaylı görüşlər əsnasında həmişə gənclərdən soruşuram ki, siz darıxmırsınız burada? Deyirlər, yox, darıxmırıq. Çünki doğma Vətən, doğma torpaq bizi çəkir və bu, bir daha xalqımızın nə qədər yüksək mənəvi keyfiyyətlərə malik olduğunu göstərir.

Mən sizi təbrik edirəm. Yenə də deyirəm, artıq iki aydır ki, siz burada mərhələli yollarla məskunlaşırsınız, dekabrın 13-dən başlayaraq bu günə qədər. Hələ ki, proses davam edir. Hələ bərpa ediləsi evlər var, onları da bərpa edəcəyik. Burada insanlar rahat, təhlükəsiz və xoşbəxt yaşamalıdırlar. Bunun üçün Azərbaycan dövləti bundan sonra da hər şeyi edəcəkdir. Bir daha sizi təbrik edirəm.

Sakinlər yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

**Sakin**: Xoş gəlmisiniz, möhtərəm Prezident. Mən yazdığım bir şeirlə xalqa fikrimi çatdırmaq istəyirəm, icazə versəniz.

**Prezident İlham Əliyev**: Buyurun.

**Sakin**:

Ey uca millətim, uca dövlətim,
Ucalsın bayrağın uca dağ kimi.
Sönməsin ocağın, sönməsin odun,
Rəbbin yandırdığı bir çıraq kimi.
Açılsın sabahın, gülsün millətin,
Qalmasın möhnətin, dərdin, zülmətin.
Xalqa məlhəm olsun gücün, qüdrətin,
Xəstəyə can verən bir loğman kimi.
İlhamam, adına qurbanam özüm,
Haqqını itirsəm, kor olsun gözüm,
Türkün birliyinə yar olsun sözüm,
Torpağa can verən bir bulaq kimi.

**Prezident İlham Əliyev**: Çox sağ olun.

**Sakin**: Çox sağ olun. Yenə minnətdarıq. Çox sağ olun, hər birimiz minnətdarıq Sizə.

**Prezident İlham Əliyev**: Oğlunuz şəhid olub?

**Qadın sakin:** 1992-ci ildə.

**Prezident İlham Əliyev**: Allah rəhmət eləsin.

(Ardı 2-ci səhifədə)



Azərbaycan Ordusunda psixoloqlarla növbəti təlim keçirilib

4-cü səhifədə



Feldşerin çalışqanlığı

5-ci səhifədə



“Burada çalışmaq mənə ruhən rahatlıq verir”

6-cı səhifədə



Vətən əsgərin ruhudu

8-ci səhifədə

# Prezident İlham Əliyev Türkiyə parlamentinin Milli müdafiə komissiyasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarı qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkələrimiz arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsi məmnunluqla qeyd olundu.

Hulusi Akar dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.



## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bütün Qarabağ bölgəsi, Şərqi Zəngəzur bölgəsi dirçəlir və hər gün biz bunu əyani şəkildə görürük



(Əvvəli 1-ci səhifədə)

**Qadın sakin**: Bir şəhid ailəsi kimi sənə təşəkkürümü bildirirəm. Çox sağ olun.

**Prezident İlham Əliyev**: Allah bütün şəhidlərimizə rəhmət eləsin. Həm Birinci Qarabağ müharibəsi şəhidlərinin, həm də ki, Vətən müharibəsi şəhidlərinin qanını biz döyüş meydanında aldıq, onların qisasını aldıq və ədaləti bərpa etdik. Onların xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq.

**Qadın sakin**: Onun qəbrini ki, gördüm, çox sağ olun. Nənən sənə qurban olsun.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Kişi sakin**: Möhtərəm cənab Prezident, cənab Ali Baş Komandan, Siz Ballıca kəndinə xoş gəlmisiniz. Cənab Prezident, ermənilərin ən böyük terror dəstələri Ballıca kəndində məskunlaşmış və buradan öz çirkin əməllərini həyata keçirməyə çalışmışlar. Bu gün Bakı həbsxanalarında özlərini quzu kimi aparan erməni cəlladları, sözün həqiqi mənasında, xalq arasında deyildiyi kimi, Ballıca kəndində at oynatmışlar. Sizin böyük siyasətinizin nəticəsində xalqımız, camaatımız bu gün Sizinlə görüşə Ballıca kəndinə gəlmişdir və bu görüş bizim arzuladığımız görüşdür. Bu görüşə görə Sizə minnətdarlığımızı, təşəkkürümü bildirirəm.

Cənab Prezident, Qarabağla bağlı Böyük Qayıdışa dair Dövlət Proqramı uğurla həyata keçirilir, Sizin göstərişinizlə Ballıca kəndində həyat qaynayır. Necə deyərlər, biz Vətənimizə, torpağımıza gələndən sonra ilk olaraq şəhidlərimizin döyüşdüyü yerləri, əsgərlərimizin erməni quldurlarına qan uddurduqları yerləri və böyüklərimizin, ulularımızın uyuduğu məkanları ziyarət etmişik. Bu ziyarətləri bizə Siz, cənab İlham Əliyev bəxş etmişdir. Ona görə biz Sizə öz təşəkkürümüzü bildiririk. Sizə sonsuza qədər təşəkkür etsəm azdır. Əllərimi uca göylərə açaraq söyləyirəm: "Tanrı Sizi qorusun!". "Tanrı ailənizi qorusun!". "Tanrı xalqımızı qorusun!".

**Sakinlər**: Amin!

**Sakin**: Sağ olun. Nə yaxşı ki, Siz varsınız. Sizə bizim böyük ehtiyacımız vardır. Sağ olun, təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Sağ olun, təbrik edirəm. Necə yaşayırsınız burada? Hər şey yaxşıdır?

**Sakinlər**: Xoş gəlmisiniz. Allah Sizi qorusun. Ali Baş Komandan, "dəmir yumruq" buradadır.





**Prezident İlham Əliyev**: Çox sağ olun. Maşallah sənin də yumruğun yaxşıdır.

**Kişi sakin**: Cənab Prezident, çox sağ olun. Var olun ki, o əmri verdiniz, o "dəmir yumruq"la onların başını əzdik. Minnətdarıq Sizə.

**Prezident İlham Əliyev**: Sağ olun. Sizə minnətdaram. Sizin kimi oğullar hesabına torpaqlarımızı düşməndən azad etdik.

**Kişi sakin**: Borcumuzdur, cənab Prezident.

**Qadın sakin**: Hörmətli Prezidentimiz, Siz Ballıca kəndinə çox xoş gəlmisiniz. Allah Sizi qorusun, Allah ordumuzu qorusun, Allah şəhidlərimizə də rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Bugünkü günü bizə yaşatdığınız üçün Sizə çox-çox təşəkkürümü bildirirəm. Allah sizləri qorusun.

**Prezident İlham Əliyev**: Sağ olun, sizi bir daha təbrik edirəm.

**AZƏRTAC-ın materialları əsasında**

# Cəlil Xəlilov: İrəvan nə işğal dönəmində, nə də Vətən müharibəsindən sonra sülh danışıqlarında səmimi olmayıb

"Ermənistan sülhə yox, sülhün imitasiyasına çalışır".

Bunu AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov bildirib.

Polkovnik qeyd edib ki, əslində Ermənistan nə işğal dönəmində, nə də müharibədən sonra sülh danışıqlarında səmimi olmayıb: "Azərbaycan hələ Birinci Qarabağ müharibəsindən sonra işğal faktorunu aradan qaldırmaq üçün uzunmüddətli diplomatik cəhdlər ortaya qoydu. Lakin 30 ilə yaxın müddətlə problemin sülh yoluyla həlli ilə bağlı rəsmi Bakının ortaya qoyduğu səylər səmərəsiz qaldı. İrəvan bu gün olduğu kimi, həmin dönəmdə də sülh danışıqlarında formal olaraq iştirak etdi. Problemin həlli üçün heç bir real səy, səmimi istək ortaya qoymadı. Təəssüflər olsun ki, rəsmi İrəvan bu gün də eyni saxtakar siyasəti həyata keçirməkdədir. Vətən müharibəsindən 5 ilə yaxın bir vaxt keçməsinə baxmayaraq, Ermənistan hələ də sülhün əldə edilməsinə süni manelər yaradır, prosesi məqsədli olaraq yubadır. Bu əsnada, Ermənistan sürətlə silahlanma siyasəti həyata keçirməkdədir ki, bu da İrəvanın revanşist niyyətlərindən xəbər verir. Görünən odur ki, Ermənistan hələ də 44 günlük müharibənin dərslərindən lazımi nəticə çıxarmayıb və bu gün xam xəyallarla yaşamaqdadır".

Polkovnik qeyd edib ki, Ermənistan ərazisində fəaliyyət göstərən Avropa İttifaqının mülki missiyası da sülh prosesinə zərbə vurur, bölgədə gərginliyi artırır: "Bəlli bir müddətdir ki, Ermənistan ərazisində Avropa İttifaqı missiyası fəaliyyət göstərir. Bu missiyanın adı monitorinq missiyası olsa da, faktiki olaraq təxribatla məşğuldur. Onlar mütəmadi şəkildə bizim mövqelərimizi müşahidə edir, müxtəlif təxribatçı hərəkətlərə yol verirlər. Azərbaycan tərəfi dəfələrlə bununla bağlı öz narahatlığını dilə gətirib və bəyan edib ki, Ermənistan həqiqətən də bölgədə uzunmüddətli, etibarlı sülh istəyirsə, o zaman belə təxribatçı addımlardan çəkinməli, Avropa İttifaqı missiyasını sərhəddən yığışdırmalıdır. Ancaq Ermənistan dövlətimizin bu tələbini də yerinə yetirmək üçün konkret addımlar atmır. Bu isə bölgədə vəziyyəti gərginləşdirir, sülh üçün əlavə manelər yaradır".

Cəlil Xəlilov qeyd edib ki, proseslərin bu şəkildə davam etməsi bölgədə sülh və təhlükəsizlik baxımından yaxşı heç nə vəd etmir: "Azərbaycan dəfələrlə bəyan edib ki, Ermənistan sülh üçün əməli addımlar atmalı, silahlanma siyasətindən imtina etməli, 10 noyabr bəyanatından irəli gələn öhdəlikləri yerinə yetirməlidir. Nə qədər ki, bu baş vermir, nə qədər ki, Ermənistan sülhdən daha çox revanş haqqında düşünür, bölgədə sülh üçün təhdidlər qalmaqda davam edəcək. Bununla yanaşı, Ermənistan bilməlidir ki, əgər havadarlarının fitnəsinə uyaraq regionda vəziyyəti gərginləşdirməkdə və yeni təxribatlar törətməkdə davam edərsə, bu, Azərbaycanı qəti və qabaqlayıcı addımlar atmağa vadar edəcək. Bunun isə Ermənistan üçün nəticələri son dərəcədə fəlakətli olacaq".

# Müdafiə Nazirliyinin rəhbərliyi Quru Qoşunlarının komanda-qərargah təlimini izləyib

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbər heyəti 2025-ci ilin hazırlıq planına əsasən, Quru Qoşunlarında keçirilən komanda-qərargah təlimini izləyib.*

Müdafiə Nazirliyi xəbər verir ki, xəritə üzərində tapşırıqlar dəqiqləşdirildikdən sonra komandir heyətinin qərarlara dair müvafiq məruzələri dinlənilib.



Müdafiə naziri bölmələrin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı komandirlərin qərar qəbuletmə və idarəetmə bacarıqlarının təkmilləşdirilməsi, qərargahlar və bölmələr arasında qarşılıqlı əlaqənin təmin olunması məqsədilə keçirilən təlimin gedişatını müsbət qiymətləndirib.

General-polkovnik Z.Həsənov şəxsi heyətin peşəkarlığının və döyüş hazırlığının daha da təkmilləşdirilməsi məqsədilə aidiyyəti vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

# Azərbaycan müdafiə nazirinin müavini IDEX sərgisində iştirak edib

*Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Abu Dabi şəhərində keçirilən 17-ci IDEX Beynəlxalq Müdafiə Sərgisi və Konfransı ilə 8-ci NAVDEX Dəniz Müdafiəsi Sərgisi və Konfransında iştirak edib.*










Müdafiə Nazirliyi xəbər verir ki, dünyada müdafiə sənayesi sahəsindəki ən böyük sərgilərdən biri olan, 65 ölkədən 1560 şirkətin öz məhsullarını nümayiş etdirdiyi IDEX sərgisində Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi də stendlə təmsil olunub.

Baş direktor Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin, eləcə də digər ölkələrə məxsus şirkətlərin stendlərində nümayiş olunan müasir silah və texnika nümunələri ilə tanış olub.

Sərgi çərçivəsində cənab A.Qurbanov Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri cənab Haluk Görgün, Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri cənab Robert Kalinak, Qazaxıstan Respublikasının müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkov, İtaliya Respublikasının müdafiə naziri cənab Quido Krosetto, Türkiyə Respublikasının milli müdafiə nazirinin müavini cənab Musa Heybet, eləcə də dünyanın bir neçə aparıcı şirkətlərinin rəhbər heyətləri ilə görüşüb.

Keçirilən görüşlər zamanı hərbi, hərbi-texniki əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, həmçinin maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# BƏƏ-nin Prezidenti Azərbaycanın istehsal etdiyi hərbi məhsullarla tanış olub

***Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Əbu-Dabi şəhərində keçirilən "IDEX 2025" Beynəlxalq Müdafiə Sərgisində Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "Azərsilah" Müdafiə Sənayesi Holdinqi Qapalı Səhmdar Cəmiyyətinin stendini ziyarət edib.***

Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a bildirilib ki, müdafiə sənayesi naziri Vüqar Mustafayev BƏƏ-nin Prezidentinə sərgidə nümayiş olunan Azərbaycanın istehsal etdiyi hərbi məhsullar haqqında ətraflı məlumat verib. Dövlət başçısı "IDEX 2025" Beynəlxalq Müdafiə Sərgisində fəal iştirak edən Azərbaycanın nümayəndə heyətinə uğurlar arzulayıb.

Daha sonra İtaliyanın müdafiə naziri Quido Krosetto Azərbaycanın istehsalı olan müdafiə təyinatlı məhsullara baxıb. Nazirə yerli məhsullar haqqında ətraflı məlumat verilib.



Qeyd edək ki, bu gün sərgi çərçivəsində nazir V.Mustafayev BƏƏ-nin müdafiə işləri üzrə dövlət naziri Məhəmməd bin Mübarək Fadel Əl Mazrouei, "EDGE Group" şirkətinin İdarə Heyətinin sədri Faysal Əl Bannai, "Tawazun" şurasının baş katibi Nasser Al Nuaimi və Çin Xalq Respublikasının "CETC International" şirkətinin rəhbərliyi ilə görüşüb.

Görüşlərdə müdafiə sənayesi sahəsində əməkdaşlıq imkanları müzakirə edilib, maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Pakistan HDQ Akademiyasının nümayəndə heyəti MMU-nu ziyarət edib





Azərbaycan Respublikasında səfərdə olan Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələri (HDQ) Akademiyası rəisinin müavini kontr-admiral Ehsan Ahmed Xanın rəhbərlik etdiyi nümayəndə heyəti və Akademiyanın "Hərbi Dəniz Qüvvələri Qərargah kursu"nun dinləyiciləri Milli Müdafiə Universitetində (MMU) olublar.

Müdafiə Nazirliyi xəbər verir ki, Şəhidlər xiyabanını ziyarətlə başlayan səfər çərçivəsində qonaqlar Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların məzarlarını ziyarət edib, gül dəstələri qoyaraq xatirələrinə dərin hörmət və ehtiram nümayiş etdiriblər.

MMU-ya gələn qonaqları qarşılayan MMU rektorunun elm üzrə müavini - Hərbi Elmi Tədqiqat İnstitutunun rektoru general-mayor Arif Həsənov onları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edib.



Azərbaycan və Pakistan arasında mövcud dostluq və qardaşlıq münasibətlərinin ordularımızın birgə fəaliyyətində geniş əks olunduğunu xüsusi vurğulayan general-mayor Arif Həsənov səfər müddətində nəzərdə tutulan tədbirlərin iştirakçılar üçün faydalı və maraqlı olacağına ümidvar olduğunu qeyd edib.

Nümayəndə heyətinə MMU-nun yaranma tarixi, təhsil sistemi və qarşıda duran məqsəd və vəzifələri haqqında brifinq təqdim olunub. Görüş əsnasında hərbi təhsil sahəsində qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparılıb və qonaqları maraqlandıran suallar cavablandırılıb. Protokola uyğun olaraq, kontr-admiral Ehsan Ahmed Xan "Şərəf kitabı"nı imzalayıb.

Daha sonra nümayəndə heyəti Azərbaycan Hərb Tarixi Muzeyini ziyarət edib. Burada qonaqlar Azərbaycanın qədim hərb tarixi, döyüş ənənələri və qədim dövrlərin hərbi eksponatları ilə tanış olublar. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında başlanan ordu quruculuğumuzun Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışılıb və bunun nəticəsi olaraq, Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı Böyük Qələbəyə həsr olunmuş stend və eksponatlar qonaqlara təqdim olunub. Şəhidlərimizin şərəfinə hazırlanmış stenddə nümayiş etdirilən fotolar, hərbi geyimlər, şəxsi əşyalar, təltif olunduqları medal və ordenlərlə tanış olan Pakistan nümayəndə heyətinin sualları muzeyin əməkdaşları tərəfindən cavablandırılıb.



# Ombudsman Aparatının nümayəndələri hərbi hissədə olublar





Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında imzalanan 2025-ci ilin birgə tədbirlər planına əsasən, aparatın nümayəndələri hərbi hissələrdən birini ziyarət ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, nümayəndələr hərbi hissədə şəxsi heyətin təminatı və məişət şəraiti ilə tanış olublar.

Hərbi qulluqçularla görüşən qonaqlar tibb məntəqəsində müalicə alanların sağlamlıq durumları, o cümlədən onlara göstərilən tibbi xidmətlə maraqlanıblar.

Görüş zamanı hərbi qulluqçuların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi və digər mövzularda fikir mübadiləsi aparılıb, şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.

Hərbi hissədə şəxsi heyət üçün yaradılan şərait, onların mənəvi-psixoloji vəziyyəti, eləcə də ideoloji işlə bağlı aparılan tədbirlər ümumilikdə müsbət qiymətləndirilib.

# Azərbaycan Ordusunda psixoloqlarla növbəti təlim keçirilib

*Azərbaycan Ordusunda xidmət edən psixoloqların bilik və bacarıqlarını artırmaq, eksperimental şəraitdə daha səmərəli fəaliyyət göstərmələrini təmin etmək məqsədilə Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda psixoloji təlim keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Qardaş Türkiyə Respublikasından dəvət edilmiş psixoloqlar "Psixologiyanın əsasları", "Travmada neyropsixoloji yanaşmalar", "Patologiya olmayan psixoloji problemlər", "Trans altında psixoterapiya üsulları" mövzularında dinləyicilərə ətraflı məlumat çatdırıblar.

Təlim zamanı dinləyicilərin iştirakı ilə praktik çalışmalar yerinə yetirilərək əldə olunan biliklər möhkəmləndirilib.



Təlimdə planlaşdırılmış mövzuları əhatə edən psixologiyanın fundamental prinsipləri, insan davranışlarının elmi izahı və psixoloji müdaxilə üsulları barədə məlumat verilib, döyüş və ekstremal şəraitdə travma yaşayan hərbi qulluqçuların psixoloji vəziyyətinin neyropsixoloji aspektləri və onlara effektiv dəstək metodları izah edilib, hərbi qulluqçular arasında geniş yayılmış, lakin klinik patologiya hesab edilməyən psixoloji problemlərin korreksiya yolları müzakirə edilib. Həmçinin dərin psixoloji problemlərin aradan qaldırılmasında psixoterapiyada trans vəziyyətindən istifadənin effektivliyi və tətbiq metodları izah olunub.

(I yazı)

## Heç kim unudulmur

# Sədərəyə səngər olan oğullar

Düşmənlə bir addımlıqda yerləşən sərhəd qalamız Sədərəyin başını 90-cı illərdə qara buludlar alanda muxtar respublikanın mərd oğulları dörd bir yandan köməyə yetişdilər. Sədərək qala kimi qorundu, müdafiə olundu. İnsanlar bəzən günlərlə ac-susuz, soyuq-şaxtalı havada səngərdə dayandılar, amma geri çəkilmədilər. Qadınları belə ərzaq tədarükü üçün yurd yerlərini tərk etmədilər. Bu yolda neçə-neçə oğullar şəhid oldu. Bir oldular, birlik oldular, düşmənin güclü hücumlarına 14 dəfə sinə gərdilər. Sədərək müharibə meydanına döndü, evlər, binalar dağıdıldı, amma insanların birliyini dağıtmağa düşmənin nə hünəri, nə gücü yetmədi. Sədərəyə dayaq oldular. Belə oğullara görə Ulu Öndər Heydər Əliyev Sədərəyi "Qeyrət qalası" adlandırdı. İndi də Sədərək ifadəsindən çox Naxçıvanı düşmən işğalından qoruyan bu yurd yerinə "Qeyrət qalası" deyirik.

O döyüşlərdən 35 il keçib. Güllələr yağan Sədərəkdə indi güllər açıb. Vətən müharibəsi və antiterror əməliyyatı ilə torpaqlarımız işğaldan azad olunub, bütövləşib, suverenliyinə qovuşub. Lakin heç nə yaddan çıxmır, heç kim unudulmur.



### Dəmir iradəli insanların yurdu - Dəmirçi

Yolumuz rayonun ən böyük yaşayış məntəqəsi Dəmirçi kəndinədir. Dəmir biləkli, dəmir iradəli insanların yurduna. Dəmirçi Sədərəyin ən ağır günündə ona qapı olub, qadınlarının, qocalarının, uşaqlarının sığınacağı yurd yerinə çevrilib. Şərur rayonunun inzibati ərazi vahidi olan Dəmirçi kəndi 2021-ci ildə Sədərək rayonunun tabeliyinə verilib. Ən ağır günündə sədərəklilərin dadına yetən dəmirçililər indi bu qeyrət qalasının sakinləri olublar.

Dəmirçi kəndi torpaqlarımızın azadlığı uğrunda 13 şəhid verib. Etibar Əhmədov bu kəndin ilk şəhididir. Yoldaşı Pakizə xanım onun vətənpərvərliyindən qürurla danışır. Deyir ki, Etibar tikintidə sürücü işləyirdi. Ağır günlər idi. Düşmən Sədərəyə hücuma keçmişdi. Etibar evə gəldi, uşaqlar balaca idi, onları bağrına basdı, mənimlə sağollaşdı. Dedi ki, mən getməliyəm. Evdə tək qaldığıma görə səhərisi gün uşaqları götürüb atam evinə getmək istəyirdim. Bu vaxt xəbər gəldi ki, Etibar şəhid olub. 3 uşağımı təkbaşına böyütdüm. Şükür ki, Etibarın qanı yerdə qalmadı.

### Ağxalatlı şəhid

Məmmədovlar ailəsi ilə görüşürük. Üzərindən illər keçib, lakin o illərin dəhşətini, müharibənin itkisi, ağrı-acısını Zərnişan ana unutmayıb. Qəhər boğazında düyünlənib, barmaqları Validin çərçivəyə salınmış fotosunda kilidlənib. Gözlərini bir nöqtəyə zilləyir, o illərə qayıdır, xoşbəxtliyini yaşadığı illərə...

"Valid 1982-ci ildə Tibb institutunu bitirmişdi. Təyinatını Culfaya vermişdilər. 4 oğlumuz, xoşbəxt ailəmiz vardı. Coğrafiya müəllimi idim. Mən uşaqlara bilik verir, o isə insanların sağlamlığının keşiyində dayanırdı. 1992-ci ildə Sədərəyin o ağır günlərində Dəmirçiyə qayıtdıq. Valid Sədərək xəstəxanasında işləyirdi. O vaxt sədərəklilərə dəstək məqsədilə hamının qapısı açıq idi. Valid də bir neçə ailə gətirmişdi, deyirdi bir parça çörək olsa da, onu bölün, yeyin. Valid özü əslən Vedibasar mahalının Çəmbərək kəndindən idi. Ermənilərin iç üzünü yaxşı bilirdi. Onların Qərbi Azərbaycanda törətdikləri qətliamlar, insanları öz ata-baba yurdundan didərgin salmaları və son Sədərək hadisələri Validi ön cəbhəyə atılmağa sövq edirdi. Beləcə, Valid könüllü olaraq bir həkim kimi ön cəbhəyə getdi. 1992-ci il mayın 6-sı yaralıları çıxararkən şəhadətə ucaldı. Neçə-neçə döyüşçünün həyatını qurtaran Valid özünü qurtara bilmədi. Ağ xalatda olmasına baxmayaraq düşmən gülləsinə tuş gəldi, erməni snayper tərəfindən sinəsindən vuruldu. Valid bir həkim kimi ön cəbhədə öz missiyasını yerinə yetirdi, ağ xalatına qara ləkə salmadı. Bayrağımızın al rənginə - qırmızıya boyandı. Müstəqilliyimizin əbədiyyət yolçuluğuna, gələcək Zəfərimizə işıq salanlardan oldu. Bu gün Sədərək də, Dəmirçi də gözəlləşib, inkişaf edib. Doğma Qarabağımız azad edilib, yenidən qurulur, Xocalıda körpə doğulur, Laçında qara zurnanın səsi ərşə dayanır, insanlar yurduna, yuvasına dönür. Bu günümüzə şükür! Qoy uca Tanrı dağlarda səngər olan oğullara kömək olsun, rəşadətli ordumuz daim var olsun!

**Ruhiyyə RƏSULOVA**
**"Şərq qapısı"qəzetinin məsul katibi**

# Hərbi attaşelər Aviasiya Təmir Zavodunda olublar



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına uyğun olaraq, ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri üçün Hərbi Hava Qüvvələrinin Aviasiya Təmir Zavoduna tanışlıq səfəri təşkil edilib.

Səfərdə 17 ölkəni təmsil edən hərbi attaşelik aparatının 22 nümayəndəsi iştirak edib. Qonaqlara əvvəlcə Aviasiya Təmir Zavodunun yaranma tarixi, inkişaf mərhələləri və hazırkı fəaliyyəti barədə ətraflı brifinq təqdim olunub. Bildirilib ki, zavodda hərbi aviasiya texnikasının texniki baxışı, təmiri və modernizasiyası həyata keçirilir. Həmçinin burada uzun illərin təcrübəsinə malik peşəkar mühəndislər, texniki işçilər və hərbi aviasiya sahəsində ixtisaslaşmış mütəxəssislər fəaliyyət göstərir.



Brifinqdən sonra hərbi attaşeləri maraqlandıran suallar cavablandırılıb.

Sonra nümayəndə heyəti zavodun istehsalat bölmələrini gəzərək təmir, modernizasiya və digər prosesləri əyani şəkildə izləyiblər. Qonaqlar zavodda görülən işləri birbaşa müşahidə etməkdən məmnun olduqlarını bildirərək, burada tətbiq olunan texnologiyaları və mütəxəssislərin peşəkarlığını yüksək qiymətləndiriblər.

İştirakçılar bu cür tədbirlərin beynəlxalq hərbi əməkdaşlığın möhkəmləndirilməsində və təcrübə mübadiləsində əhəmiyyətli rolundan danışaraq səfərin təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildiriblər.

## Tibb xidməti

# Feldşerin çalışqanlığı

Tibb məntəqəsindəyik. Qəbul otağında gənc, qarayanız, ortaboy ağxalatlı hərbi qulluqçu qeydiyyat jurnalında qeydlər aparır. Hərbi mundirə və tibb məntəqəsinin daxili qaydalarına ciddi riayət etdiyi onun davranışında hiss olunurdu. Tibb xidməti baş leytenantı Nurəli Qasımlı tibb xidmət gizirini təqdim edəndə onun haqqında ağızdolu xoş sözlər dedi. İlk dəfə gördüyüm və xoş təəssürat bağışlayan tibb xidməti giziri haqqında komandirin də onun xidmətindən razı qalması lap yerinə düşdü. Çox keçmədi feldşer gizirlə həmsöhbət olduq.

Tibb xidməti giziri Məcid Əhmədov Tovuz rayonunun Koxa Nəbi kəndindəndir. Ermənilərin başlatdığı Qarabağ müharibəsinin ilk illərindən Koxa Nəbi kəndinə daşnakların çoxlu hücumları olub. Çünki kənd Ermənistanla sərhəddə yerləşir. Düşmən təkcə Qarabağda deyil, sərhəd boyu kənd və şəhərləri də atəşə məruz qoyurdu. Lakin tovuzlular düşmənə qarşı mərdliklə mübarizə aparıblar. Döyüşlərin şiddətlə getdiyi vaxt Məcid balaca uşaq olub. Həmin illəri yaxşı xatırlamasa da, atəşkəs dövründə doğma kənddə yaşayıb. Ermənilərin tez-tez kəndi atəşə məruz qoyduğu anları heç vaxt unutmaycağını deyir. Avtomat, pulemyot, snayper gülləələri altında böyüyən Məciddə düşmənə qarşı nifrət hissi baş qaldırıb. Onun hərbçi olmağına səbəb də məhz bu olub.

Məcid həm də 1992-ci ilin oktyabrında Sırxavəndin azad edilməsi uğrunda gərgin döyüşlərdə ağır yaralanmış, cəsur döyüşçü baş leytenant Nizami Əhmədovun qardaşı oğludur. Vətənpərvər döyüşçü ailəsində doğulub və böyüyüb. Məcid Aprel döyüşlərinin, İkinci Qarabağ müharibəsinin fəal iştirakçısı olub. O, döyüş meydanında yaralanan əsgərlərə ilk tibbi yardım göstərib, sonra onları hərbi hospitala təxliyə edib. Yaralılara göstərilən ilk tibbi yardım onların tezliklə sağalmasına səbəb olub.

Məcid 2011-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi-Tibb Fakültəsinin nəzdində tibb kollecini bitirib. "Tibb xidməti giziri" rütbəsi almaqla feldşer ixtisasına yiyələnib. O zaman təyinatla cəbhə bölgəsinə hərbi xidmətini davam etdirmək üçün göndərilib. Ön xətdə yerləşən taborun məntəqə rəisinin köməkçisi olub. Həmişə işində məsuliyyətli olmağa çalışıb. Tez-tez ön xətdə yerləşən postlara baş çəkib, döyüş növbəsində olan əsgərlərin sağlamlığını daim nəzarətdə saxlayıb. Ehtiyac yarandıqda qazmalarda dezinfeksiya işləri aparıb. Keçirilən bu cür tədbirlər şəxsi heyət arasında müxtəlif yoluxucu xəstəliklərin qarşısının alınması üçün zəruri olub.



Tibb xidməti giziri Məcid Əhmədov İkinci Qarabağ müharibəsi zamanı yaralı döyüşçülərə ilk tibbi yardım göstərməklə təhlükəni aradan qaldırıb. O, yaralı döyüşçüləri mümkün qədər döyüş meydanından operativ çıxarmağa çalışıb. Onun bu cür fədakarlığı komandirlərinin də diqqətindən yayınmayıb. Döyüşçülərin rəğbətini qazanıb.

Məcid 2023-cü il sentyabrın 19-20-də antiterror əməliyyatına cəlb olunub. Cəmi bir gün davam edən döyüş əməliyyatında da qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirib. Artıq müharibə arxada qalıb. İndi Məcid birləşmənin tibb məntəqəsində səhhəti ilə bağlı müraciət edən əsgərlərin qeydiyyatını aparır. Müraciət edən hərbi qulluqçuları həkimə təqdim etməklə onların tezliklə sıraya qayıtmaqlarını təmin edir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Görkəmli şəxsiyyətlər

# Çar Ordusunda xidmət etmiş Azərbaycan əsilli ilk yüksəkrütbəli hərbçi general-leytenant **İsrafil bəy Yadigarov**



***İsrafil bəy Mustafa bəy oğlu Yadigarov 15 dekabr 1815-ci ildə Borçalı qəzasının Təkəli kəndində Qarapapaq sülaləsindən olan Yadigarlı ailəsində dünyaya gəlib. 1825-ci ildən 1830-cu ilədək Qaçağan kəndindəki Kərbəlayi Hüseyn Mikayılın dini məktəbində ilk təhsilini alıb. 1831-ci ildə Tiflisdə rus gimnaziyasında təhsil alan İsrafil bəy Yadigarov 1834-cü il sentyabrın 1-də Zaqafqaziya bəylərindən təşkil olunmuş Müsəlman Süvari alayına könüllü qəbul olunub. Bir il sonra praporşik olan İsrafil bəyə 1839-cu il dekabrın 23-də dağlılara qarşı döyüşlərdə fərqləndiyinə görə podporuçik rütbəsi verilib. Əlahiddə Qafqaz korpusunun qərargahında xidmətini davam etdirib.***

1841-ci il yanvarın 2-də Əlahəzrət İmperatorun şəxsi təşəbbüsü ilə təşkil olunan Müsəlman Süvari alayına təyin olunub. 1846-cı ildə ştabsrotmistri, 1849-cu il aprelin 3-də rotmistr rütbəsi alan İsrafil bəy Yadigarov macarlara qarşı döyüşlərdə iştirak edib. 1851-ci il yanvarın 29-da podpolkovnik İsrafil bəy Peterburqdan Tiflisə qayıdıb və Əlahiddə Qafqaz süvari korpusunda xidmətini davam etdirib. 1853-cü ildə Krım müharibəsi başlayanda podpolkovnik İsrafil bəy Yadigarov azərbaycanlılardan ibarət 1000 nəfərlik süvari Müsəlman Briqadası komandirinin müavini olub. Bir il sonra borçalılı könüllülərdən ibarət yığma - "ovçu" döyüşçülər təşkil edən İsrafil bəy ordunun tərkibində ikinci süvari Azərbaycan alayı yaradıb.

1854-cü il avqustun 19-da döyüşən ordu komandanlarından biri Əlahiddə Qafqaz korpusunun komandirinə göndərdiyi məlumatda belə yazıb: "Bu gün möhkəm və dəhşətli bir hücum oldu. Düşmən müdafiə olunmağa cəhd göstərirdi. Lakin onlar İsrafil bəy Yadigarovun süvarilərinin hücumuna davam gətirə bilmədilər. Düşmənin sol cinahı yarıldı. Draqunlar, kazaklar, ikinci Azərbaycan süvariləri və gürcü drujinası sürətlə irəli atılıb onları döyüş səhnəsindən sildilər".

Arxiv sənədlərində göstərilib ki, 1855-ci ilin iyulunda polkovnik İsrafil bəy Yadigarov Şəki və Şamaxı könüllülərindən ibarət təşkil etdiyi süvari alayla Qars üzərinə olan qəti hücumda bir neçə dəfə fəal döyüşlər aparıb. Bu döyüşlərdə qeyri-adi qəhrəmanlığa görə təltif olunan 350 nəfərdən çox azərbaycanlı arasında polkovnik İsrafil bəy Yadigarov da olub.

Krım müharibəsi dövründə Qafqazın milli hərb xadimləri arasından çıxan hərbçiləri Rusiyanın şöhrətli hərbi xadimləri ilə bərabər qoysaq, səhv etmərik. Onlara azərbaycanlı general İsmayıl bəy Qutqaşınlı, podpolkovnik Mənsur ağa Vəkilov, polkovnik İsrafil bəy Yadigarov, general-leytenant Fərəc bəy Ağayev, general Həsən bəy Ağalarov, kabardin polkovniki Sultan Qazi Gərayi, osetin polkovniki Kondukov, Dudarov və başqalarını aid etmək olar.

1855-ci il yanvarın 17-də İsrafil bəy Yadigarova polkovnik rütbəsi verilib. 1855-ci il dekabrın 10-da o, Qars hərbi dairəsinin rəisi təyin olunub. Lakin Tiflisə müalicəyə getdiyinə görə həmin vəzifəni qəbul edə bilməyib.

Nizami orduda əla xidmətlərinə görə 1866-cı il noyabrın 8-də İsrafil bəy Yadigarova general-mayor rütbəsi verilib. 1877-ci il iyunun 6-da döyüşən ordu korpusunun tərkibində Qafqaz-Türkiyə sərhədlərinə ezam olunan general İsrafil bəyin süvari korpusu İğdır, Sərdarabad, Arpaçay, Kürəkdərə və Qars uğrunda döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərib.

Nizami orduda 50 illik xidmətlərinə görə İsrafil bəy Yadigarov 1883-cü il aprelin 14-də general-leytenant rütbəsi alıb. Həmin il istefaya çıxıb, ona maaşı saxlanılmaqla ömrünün axırına kimi general formasını gəzdirmək hüququ da verilib. Rusiya Mərkəzi Hərbi Tarix Arxivindəki rəsmi sənəddə general-leytenant İsrafil bəy Mustafa bəy oğlu Yadigarova məxsus "Xidmət dəftərçəsi"ndə onun döyüş yolu, ailə vəziyyəti, təltif olunduğu orden və medallar təfsilatı ilə göstərilib.

Həmin sənəddə qeyd olunub ki, şərəfli bəylər nəslindən olan İsrafil bəy Gürcüstanın Tiflis quberniyasının zadəgan ailəsindəndir. Dini islamdır. İsrafil bəy ilk dəfə 1848-ci ildə üçüncü dərəcəli "Müqəddəs Anna", 1854-cü ildə ikinci dərəcəli "Müqəddəs Anna", 1856-cı ildə ikinci dərəcəli "Müqəddəs Stanislav" (imperator tacının təsviri ilə birgə), 1859-cu ildə ikinci dərəcəli "Müqəddəs Anna" (imperator tacının təsviri və qılıncla birgə), 1860-cı ildə "İyirmi illik qüsursuz xidmətinə görə" medalı ilə, 1863-cü ildə müsəlmanlar üçün təsis olunmuş dördüncü dərəcəli "Müqəddəs Vladimir", 1869-cu ildə üçüncü dərəcəli "Müqəddəs Vladimir", 1877-ci ildə müsəlmanlar üçün təsis olunmuş birinci dərəcəli "Müqəddəs Anna" ordenləri ilə və üstü "İgidliyə görə" yazılı gümüş, Krım müharibəsindəki qəhrəmanlığına görə açıq rəngli xatirə medalları ilə təltif olunub.

Generalın həyat yoldaşı rotmistr İsmayıl bəy Vəzirovun qızı Səidə xanım olub. General-leytenant İsrafil bəy 7 övlad atası idi. Birinci oğlu Rəhim bəy 1845-ci il oktyabrın 10-da, Kərim bəy 1854-cü il yanvarın 21-də, Məmməd bəy 1855-ci il avqustun 25-də, Həsən bəy və Hüseyn bəy 1856-cı il oktyabrın 8-də (əkiz olublar), Səkinə xanım 1843-cü il martın 27-də, Xeyranisə xanım 1850-ci il dekabrın 23-də anadan olublar.

İstefaya çıxan general-leytenant İsrafil bəy ömrünün sonuna kimi Tiflis quberniyasında şöbə rəisi vəzifəsində çalışıb.

General İsrafil bəy 1884-cü il fevralın 6-da vəfat edib.

**"Azərbaycan Ordusu"**

## Məişət

# “Burada çalışmaq mənə ruhən rahatlıq verir”

***Respublikamızın bölgələrində hərbi qulluqçuların rahatlığının təmin edilməsi və xidmətin yüksək səviyyədə təşkili üçün hər növ məişət şəraiti yaradılıb. Bütün hərbi hissələr müasir tələblərə uyğun qurulub. Hərbi qulluqçularımız milli mətbəximizə aid müxtəlif növ dadlı yeməklərin hazırlandığı yeməkxanalarda qidalanır, geniş və rahat yataqxanalarda istirahət edirlər. Yaradılan əlverişli şərait isə əsgərlərin uğurlu xidmət aparması və mənəvi-psixoloji durumunun yüksək səviyyədə saxlanılması baxımından mühüm rol oynayır.***



"N" hərbi hissəsində əsgərlərimizin məişət şəraiti ilə tanış olduq. Hərbi hissənin zabiti kapitan Bəhruz Məmmədov bizi tam avtomatlaşdırılmış sistemdə fəaliyyət göstərən, müasir avadanlıqlarla təchiz edilmiş camaşırxanaya baxmağa dəvət etdi. Zabit bildirdi ki, hərbi qulluqçuların geyim və yataq dəstlərinin təmizliyində camaşırxana mühüm rol oynayır. Öyrəndik ki, camaşırxana bir neçə bölmədən ibarətdir.

Camaşırxana rəisi Araz Babazədə burada görülən işlər barədə ətraflı məlumat verdi: "Camaşırxanada çirkli camaşırların qəbulu, yuyulması, ütülənməsi və çeşidlənərək saxlanc otaqlarında yığılması ardıcıl şəkildə həyata keçirilir. Burada çalışan operatorlar müasir avtomatlaşdırılmış avadanlıqları istifadə edərək bölmələrdən daxil olan çirkli camaşırların təmizlənməsini təşkil edirlər", - deyə A.Babazadə bildirdi.

Fürsətdən istifadə edib operatorlarla söhbətləşdik. Yuyucu-sıxıcı maşın operatoru Camal Batıyev iş prosesi haqqında məlumat verdi: "Camaşırxanamız gün ərzində yüzlərlə camaşır və geyimlərin yuyulub, qurudulub, ütülənməsini təmin edə bilir. Buraya daxil olan çirkli camaşırlar əvvəlcə çeşidlənir sonra müvafiq olaraq yuyulması üçün mənə təhvil verilir. Mən də öz növbəmdə yuyulan və qurudulan camaşırları ütülənməsi üçün digər operatorlara təhvil verirəm. Burada yeni avadanlıqların köməkliyilə iş prosesində əl əməyi demək olar ki, minimuma endirilib", - deyə C.Batıyev qeyd etdi.

İşini sevərək icra edən digər operator Xatirə xanım bir neçə ildir hərbi hissənin camaşırxanasında çalışdığını öyrəndik. Ütüləyici operator olan Xatirə Əliyeva ona təhkim olunmuş avadanlıq vasitəsilə qəbul olunan camaşırların qısa müddət ərzində ütülənməsini həyata keçirdiyini bildirdi.







"Gördüyünüz bu avadanlıq böyük ölçülü olan camaşırları avtomatik olaraq ütüləyir. Artıq kiçik ölçülü ütülərdən istifadə etmədən camaşırları bu qurğuya yerləşdirilərək avtomatik ütülənməsini icra edə bilirik. Burada çalışmaq mənə ruhən rahatlıq verir. Şəhidlərimizin canlarından keçərək azad etdiyi torpaqlarımızın bugün müdafiəsində duran hərbçilərimizə xidmət etmək mənim üçün qürurvericidir", - X.Əliyeva dedi.

Digər operatorlar Samirə Qasımova, Səyyad Hacıyev, Rauf Məmmədov, İlham Ayralovun da işlərinə sevgi ilə yanaşdıqlarının şahidi olduq. Hər biri burada çalışdığı üçün məmnun olduğunu qeyd etdi.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** 31 Mart Azərbaycanlıların soyqırımı günüdür.

**Suallar:**

**1. Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri.**

**2. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı və bu fərmanın tarixi əhəmiyyəti.**

### Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri

XIX əsrin əvvəllərində Rusiya imperiyasının cənub dənizləri istiqamətində ərazilərin genişlənmə siyasəti nəticəsində Qacarlar dövləti ilə Çar Rusiyası arasında baş vermiş müharibələr nəticəsində 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin bağlanması Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarının bölünməsinin əsasını qoymuşdur. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilir. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən, Qacarlar dövlətindən 40 min, Osmanlı imperiyası ilə Rusiya imperiyası arasında baş vermiş müharibə nəticəsində bağlanılmış Ədirnə müqaviləsinə əsasən isə Osmanlı imperiyasından 86 min nəfər erməni Cənubi Qafqaza köçürülərək əsasən Azərbaycan türklərinin yaşadığı İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində yerləşdirilir. Rusların bu ərazilərin ilhaqında xüsusi rol oynamış ermənilərin köməyi əvəzinə gəlmə ermənilər bu xanlıqların ərazilərində azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, ermənilər üçün Naxçıvan və İrəvan xanlıqlarının ərazisində rus çarının fərmanı ilə "erməni vilayəti" adı ilə inzibati ərazi bölgüsü yaradılmışdır. Cənubi Qafqaza köçürülmüş və getdikcə öz yerlərini möhkəmləndirən ermənilər "böyük Ermənistan" yaradılması ideyasının və onun təbliği siyasətinin əsasını qoyurlar.

Ermənilərin öz xəyallarında uydurduqları bu dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəldilmiş genişmiqyaslı proqramlar hazırlanır və reallaşdırılır. Bu məsələlər xüsusilə XIX əsrin axırlarında yaradılmış "Armenakan", "Hnçaq", "Daşnaksütyun" və digər bu kimi şovinist erməni millətçi partiyaların proqramlarında geniş yer alır.

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdi. 1919-cu və 1920-ci illərdə martın 31-i AXC tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdi. Lakin AXC dövründə ermənilərin azərbaycanlılara qarşı soyqırımını araşdırmaq məqsədilə yaradılan komissiya sovet ordusunun ölkəmizi işğal etməsi səbəbindən öz işini başa çatdıra bilmədi.

Sovet hakimiyyətinin onlara qarşı isti münasibətindən və Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzur qəzasını və Azərbaycanın bir sıra mübahisəsiz torpaqlarını öz ərazilərinə qatmağa nail oldular. Cidd-cəhdlə çalışsalar da, Qarabağı ələ keçirə bilməyən ermənilər 1923-cü ilin iyulunda ona muxtar vilayət statusu verdirməyə nail ola bildilər. Məqsəd isə gələcəkdə onu Ermənistan SSR-ə birləşdirmək idi.

Xaricdən gələn ermənilərin yerləşdirilməsi, həm də Kür-Araz ovalığının pambıq əkən rayonlarda işçi qüvvəsinin çatışmazlığı bəhanəsi ilə azərbaycanlıların əzəli torpaqlarından deportasiyasının növbəti mərhələsi həyata keçirilir. Belə ki, SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı ilə 1948-1953-cü illərdə 150 min azərbaycanlı ilk baxışda görünməyən soyqırımına - deportasiyaya məruz qalmış, öz tarixi vətənindən zorla köçürülərək Azərbaycan Respublikasının ərazisində yerləşdirilmişdi.

XX əsrin 50-ci illərindən başlayaraq onsuz da saxtalaşdırılmış erməni tarixini daha da saxtalaşdıraraq gənc ermənilərin millətçilik və şovinizm ruhunda böyüməsinə zəmin yaratmaq Ermənistan SSR-də dövlət siyasəti səviyyəsinə qaldırılır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar uyduran ermənilər siyasi və hərbi təcavüzlər üçün ideoloji zəmin hazırlayırdılar.

1988-ci ildən ermənilər tərəfindən süni şəkildə ortaya atılan Qarabağ münaqişəsinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına Azərbaycanda düzgün siyasi qiymət verilmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvarında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu. Qarabağdakı azərbaycanlı kəndlərindən də azərbaycanlılar kütləvi surətdə təqib edilərək zorla qovuldu. 1992-ci ilin fevralın ortalarında ermənilər Xocavənd rayonunun Qaradağlı kəndinin 54 sakinini vəhşicəsinə öldürüb silos quyularına atdılar. 1992-ci il fevralın 25-də isə erməni hərbi birləşmələri ilə sovet ordusundan qalma və şəxsi heyəti əsasən ermənilərdən ibarət olan 366-cı alay Xocalıya hücum edərək şəhərin əhalisinə vəhşicəsinə divan tutdular, daha bir dəhşətli soyqırımını törətdilər. 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 1275 nəfər əsir alındı, 8 ailə bütövlüklə məhv edildi. 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırıldı, dəriləri soyuldu, gözləri çıxarıldı, başları kəsildi, hamilə qadınların qarnı süngü ilə deşildi.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci ilin mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edib.

### Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı və bu fərmanın tarixi əhəmiyyəti

Tarixi şərait səbəbindən ötən iki əsr ərzində baş vermiş hadisələrə, xalqımızın faciələrinə obyektiv qiymət vermək mümkün olmamışdır. Yalnız müstəqillik dövründə ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı cinayətlərinə əsl hüquqi-siyasi qiymət verildi. 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdu. Ulu Öndər Heydər Əliyev bu fərmanla 1918-ci il mart hadisələrini geniş şərh etdi, bolşevik cildinə girmiş erməni daşnaklarının Azərbaycan xalqının başına gətirdiyi müsibətləri dünyaya bəyan edərək qanlı əməllərə düzgün siyasi qiymət verdi və onu Azərbaycan xalqına qarşı törədilən ən böyük faciə adlandırdı. Erməni məkrinin tarixi faktların dili ilə ifşa edən bu fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından bir növ proqram sənədidir. Fərmanda deyilir: "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər. 1918-ci ilin martından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə adı altında Bakı Kommunası Bakı quberniyasını azərbaycanlılardan təmizləmək niyyəti güdən mənfur plan həyata keçirməyə başladı. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük hissəsini xarabazarlığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində də xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi şəkildə qətlə yetirilmiş, kəndlər dağıdılmış, milli mədəniyyət abidələri məhv edilmişdir".

Azərbaycan tarixində ilk dəfə olaraq Ulu Öndər Heydər Əliyev erməni məkrini tarixi faktların dili ilə ifşa etdi. Ulu Öndərin imzaladığı fərmanda ermənilərin Azərbaycana qarşı təcavüzünün tarixi köklərinə toxunulur, onların mərhələlərlə törətdikləri soyqırımı və terror siyasətinin mahiyyəti açılır, ölkəmizin hansı tarixi ədalətsizliklərlə üzləşdiyi yeni nəsillərə anladılır, xalqımızın qarşılaşdığı müsibətlərin tarixinə, siyasi və çağdaş aspektlərinə nəzər salınır. Eyni zamanda, bu fərman terrorizmə, soyqırımına qarşı mübarizə aparmaq üçün Ulu Öndərin müəyyən etdiyi bir yoldur. Azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən bu tarixi sənədlə martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Bu fərman həm də uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulan həqiqətləri açmış, xalqımızın qan yaddaşını təzələmişdir. Məlum olduğu kimi, xalqımız sovet dövründə uzun illər bu gerçəkliklərdən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. Hətta dəhşətli soyqırımın qurbanı olmuş minlərlə soydaşımızın uyuduğu qəbiristanlığın üstündə park salınmışdır. Bu mənada, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin imzaladığı fərman 200 illik işğal və soyqırımı siyasətini açıb göstərən tarixi sənəd olmaqla yanaşı, xalqımızın öz milli-mənəvi dəyərlərinə, tarixi köklərinə, torpağına və Vətəninə bağlılığı baxımından da əhəmiyyətlidir. Fərman türk dünyasında bu məsələ ilə bağlı rəsmən bəyan edilən ilk hüquqi-siyasi sənəd olmaqla yanaşı, həm də tədqiqatçı alimləri yeni fəaliyyət yönümündə istiqamətləndirən dövlət sənədi oldu.

Ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı, deportasiya və işğal siyasətinin intensivliyi bu gün də zəifləməmiş, bədnam qonşularımız təbliğat və qarayaxma kampaniyasını bir az da gücləndirmişlər. Ermənilər Avropa və Amerikadakı lobbi imkanlarından yararlanaraq "əzabkeş erməni milləti" obrazını yaratmaqda davam edir, bütün yolverilməz vasitələrdən istifadə edərək əsl soyqırımı haqqında həqiqətləri təhrif etməyə çalışırlar.

Son illərdə bunun qarşısını almaq üçün erməni saxtakarlığının dünyada ifşa olunması istiqamətində Azərbaycan dövlətinin fəaliyyəti daha da güclənmiş, ermənilərə qarşı ideoloji əks-hücum effektiv xarakter almışdır. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli sərəncamı bu işlərin vahid və sistemli surətdə aparılmasına imkan yaratmışdır. Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyədə qaldırılması, erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli fəaliyyət bu gün Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prinsipiallıqla davam etdirilir. Dövlət başçısı bütün görüşlərində, xarici ölkələrə səfərlərində, çıxışlarında Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirən erməniləri ifşa etmiş, soyqırımı cinayəti törədənləri və ona göz yumanları kəskin tənqid etmiş, dünya ictimaiyyətini erməni riyakarlığına son qoymağa çağırmışdır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin azərbaycanlıların soyqırımı günü ilə bağlı xalqa müraciətlərində ermənilərin müxtəlif illərdə dinc azərbaycanlılara qarşı soyqırımı həyata keçirmələri, soydaşlarımızın yurd-yuvalarından didərgin salınması, ərazilərimizin işğalı, erməni şovinist millətçilərinin xalqımıza qarşı təcavüzünün, onun ağır nəticələrinin yüz minlərlə soydaşımızın taleyində özünü büruzə verməsi, Ermənistanın və havadarlarının təcavüzkar siyasətinin iflasa məkum olması, bunun hazırkı dünya siyasətinin aparıcı meyilləri ilə ziddiyyət təşkil etməsi qeyd olunmaqla yanaşı, belə bir zamanda dövlətin və hər birimizin qarşısında duran başlıca vəzifələr göstərilir.

Qarşımızda duran əsas vəzifələr xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, bir daha belə halların təkrar olunmamasına çalışmaqdır. Bunun üçün isə yalnız möhkəm və yenilməz milli birlik tələb olunur. İnanırıq ki, vaxt gələcək dünya birliyi ermənilərin Azərbaycan xalqına qarşı tarixən törətdiyi cinayətlərə, soyqırımına obyektiv qiymət verəcək.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Vətən əsgərin ruhudu

*Hamımızın yaddaşında "Kitabi-Dədə Qorqud"dan düşən bir söz işığı var: Görər gözlərimin aydını oğul! Dövlətimizi, dövlətçiliyimizi sevirik, Vətəni tanıyırıq - Vətəni sevirik. "Görər gözlərimin aydını, Vətən!" deyirik. Aydını, yəni, işığı. Uşaqlar bu dərklə yeniyetmələşir, yeniyetmələr bu dərklə çağırışçı yaşına çatır, çağırışçılar hərbi xidmətə bu dərklə gedirlər.*



İkinci Qarabağ müharibəsinə kimi bu dərk torpaqlarımızın işğaldan azad olunması niyyətiydi, ərazi bütövlüyümüzün tam bərpa edilməsi arzusuydu…

2020-ci il sentyabrın 27-də Ermənistan ordusunun bölmələri yeni ərazilər işğal etmək niyyəti ilə torpaqlarımıza hücum etmişdi, hücumun qarşısı alınmışdı, ordumuz Ali Baş Komandanın döyüş əmri ilə əks-hücuma keçmişdi. İkinci Qarabağ müharibəsi başladı…

Azərbaycan Ordusunun bütün qoşun növləri qətiyyətlə döyüşürdü…

Düşmən gözlənilməz yerdəyişmələr edəndə, mövqelərimizin ətrafında cəmləşəndə, taktiki yerdəyişmələrlə üstün mövqelərə çıxmaq istəyəndə yüksək döyüş hazırlığına malik olan snayperlərimiz seçdiyi mövqeyi səngər bilirdi, izlədiyi mövqeyi nişangahda tarazlayırdı, barmağı tətiyin sirdaşına dönürdü. Düşmənin sırası bir-bir azalırdı…

Snayperlər İkinci Qarabağ müharibəsinin döyüşlərində sinəsinə sıxdığı silahı Vətən bilirdi, həmişə döyüş növbətçiliyində olurdu, müşahidələrini Vətənin müşahidələri bilirdilər. İşğaldan azad edilmiş Xocalıda söhbətləşəndə bir snayper demişdi: "İlk döyüşün ilk atışını unutmayacam. Tətiyi çəkdim, gözlərimi hədəfdən ayırmadım. Düşmənin məhv edildiyini görəndə yerdən bir ovuc torpaq götürüb öpdüm…"

Vətən əsgərin ruhudu. Əsgər bu ruh üçün xidmət edir, döyüş əmri veriləndə bu ruh üçün döyüşür, bu ruh üçün şəhidliyə qənşər gedir. Azərbaycan əsgəri deyir ki,

Səsimiz də döyüşdü,
Sözümüz də döyüşdü,
Ordumuz da döyüşdü,
Közümüz də döyüşdü.

Döyüşçü yarasına
Düşümlü məlhəm oldu
44 gün torpağımız.
Qalib döyüşçü oldu
Üçrəngli bayrağımız!..

Azərbaycan əsgəri deyir ki, torpağımızı qoruyuruq, Vətənimizi qoruyuruq, Vətən bizim ruhumuzdu - ruhumuzu qoruyuruq!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Dəniz piyada bölmələri ilə təlim keçirilib



Hərbi Dəniz Qüvvələrinin (HDQ) Dəniz piyada bölmələri ilə təlim keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, plana əsasən icra olunacaq fəaliyyətlər dəqiqləşdirildikdən sonra bölmələr şərti düşmən pusqusuna qarşı fəaliyyəti yerinə yetiriblər.

Mobil qruplar əlverişsiz hava şəraitində, meşəlik və dağlıq ərazilərdə vaxt normativinə uyğun təyin olunan istiqamətdə irəliləyib və pusqunu dəf edib. Həmçinin yaralılara ilkin tibbi yardım və təxliyə tapşırıqları uğurla icra edilib.

Ordumuzun apardığı uğurlu döyüş əməliyyatlarında qazanılmış təcrübənin tətbiq edildiyi, eləcə də şəxsi heyətin dözümlülük və praktiki vərdişlərinin artırılması məqsədilə keçirilən təlimdə verilən tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilib, qarşıya qoyulmuş məqsədlərə tam nail olunub.

# İdman

### Azərbaycanın həvəskar xizəkçiləri Türk Dövlətləri Kubokunda qızıl və bürünc medallar qazanıblar




Türk Dövlətlərinin Xizək Kurortları İttifaqının təşkilatçılığı və Türk Dövlətləri Təşkilatının dəstəyi ilə Özbəkistanın Amirsoy Dağ Kurortunda həvəskarlar arasında xizək yarışı üzrə ilk Türk Dövlətləri Kuboku keçirilib.

Turnirdə Azərbaycan, Özbəkistan, Qazaxıstan və Türkiyədən müxtəlif yaş kateqoriyalarında olan 50-ə yaxın xizəkçi iştirak edib. Yarışın nəticələrinə əsasən, Azərbaycandan qatılan həvəskar xizəkçilər Ceyhun Balametov qızıl, Famil Valimotov isə bürünc medala sahib olublar.

Turnirin sonunda qaliblər kubok və medallarla təltif olunublar.

Yarışın keçirilməsinin əsas məqsədi idman sahəsində türkdilli dövlətlərlə əməkdaşlıq əlaqələrini inkişaf etdirmək və insanlar arasında xizək idmanına marağı artırmaqdır.

Qeyd edək ki, Türk Dövlətlərinin Xizək Kurortları İttifaqına Azərbaycanın Şahdağ, Özbəkistanın Amirsoy, Qazaxıstanın Şimbulak və Türkiyənin Uludağ Dağ kurortları daxildir.

### Çimərlik voleybolu üzrə Azərbaycan millisi beynəlxalq turnirdə gümüş medal qazanıb



Çimərlik voleybolu üzrə 18 yaşadək oğlanlardan ibarət Azərbaycan millisi Latviya açıq çempionatının əsas mərhələsində iştirak edib.

Yarışda Azərbaycan və Litva 1, Estoniya 2, Latviya isə 12 komanda ilə mübarizə aparıb. Yarış qrup və play-off mərhələsindən ibarət olub. Azərbaycan açıq çempionatda gənc voleybolçular - Məhəmməd Aslanlı və İbrahim Məmmədov cütü ilə təmsil olunub. Bütün rəqiblərinə qalib gələn təmsilçilərimiz yalnız final matçında ev sahibinə 1:2 hesabı ilə məğlub olaraq, yarışın gümüş medallarını qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

### Ankarada Türkiyə ilə Ukrayna arasında müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub



Türkiyənin milli müdafiə naziri Yaşar Güler Ankarada ukraynalı həmkarı Rustem Umerov ilə görüşüb.

Türkiyə Müdafiə Nazirliyi binasının önündə hörmətli qonağın şərəfinə qarovul dəstəsi düzülüb.

Müdafiə nazirlərinin toplantısında Türkiyə Quru Qoşunlarının komandanı Selçuk Bayraktaroğlu iştirak edib.

Ukraynanın müdafiə naziri fevralın 17-də axşam Prezident Volodimir Zelenskinin başçılıq etdiyi nümayəndə heyətinin tərkibində Ankaraya gəlib.

### Avropa Ukraynaya 30 minə yaxın hərbçi göndərə bilər



Avropa ölkələri Ukraynaya 30 minə yaxın hərbçi göndərmək niyyətindədir.

Bu barədə "The Telegraph" nəşri məlumat yayıb.

"Böyük Britaniyanın Baş naziri Kir Starmer atəşkəsə nəzarət etmək üçün Ukraynaya 30 minə yaxın əsgər göndərməyi təklif edəcək", - deyə nəşrin həmsöhbətlərindən biri bildirib. Onun sözlərinə görə, avropalı hərbçilər limanlarda və mühüm infrastruktur obyektlərində yerləşdirilə bilər, lakin Ukraynanın şərq vilayətlərində olmayacaqlar. Həmçinin Polşa və Rumıniyada hava və quru qüvvələrinin yerləşdirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, bir müddət öncə Polşanın xarici işlər naziri Radoslav Sikorski Rusiyanın xarici işlər naziri Sergey Lavrovun NATO qoşunlarının Ukraynaya yerləşdirilməsinin yolverilməzliyi ilə bağlı sözlərinə münasibət bildirərək, bu barədə qərarın Rusiya tərəfindən verilməyəcəyini deyib.

### Danimarka müdafiəyə 17 milyard dollar xərcləmək niyyətindədir



Danimarka 2034-cü ilə qədər müdafiə xərclərinə 17 milyard dollar sərf etməyi planlaşdırır.

Bu barədə Danimarkanın Baş naziri Mette Frederiksen jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, dünya hazırkı vəziyyətinə görə narahatedici görünür, lakin tezliklə hər şeyin bitəcəyini düşünməyə əsas yoxdur. O, həmçinin qeyd edib ki, baş qərargah rəisinin verdiyi tapşırıq aydındır: "Alın, alın, alın!". Bu, Danimarkanın müdafiə gücünü artırmaq istiqamətindəki strateji yanaşmasını əks etdirir.

Danimarka hökuməti müdafiə xərclərini maliyyələşdirmək üçün yumşaldılmış fiskal siyasət və gözlənilən büdcə gəlirlərinin artımından istifadə edəcək. Həmçinin, Danimarka Avropa İttifaqında büdcə qaydalarının daha çevik olması təşəbbüsünü dəstəkləyir ki, bu da müdafiə sahəsinə daha çox sərmayə qoyulmasına imkan verəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Mehdiyev Hikmət İbrahim oğluna verilmiş MV № 018167 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Quliyev Ələkbər Qəşəm oğluna verilmiş MV № 138157 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
ƏLİ ABIYEV

Lisenziya № 361
Sifariş № 42
Nüsxə 3663